Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 5 (20.906)

11 yanvar 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

H.İ.Hacıyevin "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Dövlət qulluğunda fəaliyyətinə görə Həsən İbrahim oğlu Hacıyev **"Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə"** nişanı ilə təltif edilsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 10 yanvar 2014-cü il

Azadlığa gedən yol

Dünən Naxçıvan Dövlət Texniki Kollecində 20 Yanvar faciəsinin 24-cü ildönümünə həsr olunmuş "Azadlığa gedən yol" mövzusunda tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə kollecin direktoru Məmməd Qəribov açaraq 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə xalqımızın başına gətirilmiş qanlı faciə haqqında danışmışdır. Qeyd olunmuşdur ki, həmin gecə Azərbaycan xalqına qarşı törədilmiş cinayət, tökülmüş nahaq qan xalqımızın müstəqillik uğrunda mübarizə əzmini qıra bilməmiş, xalq öz yenilməzliyi və qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizəsini bütün dünyaya bəyan etmişdir. Məhz bu fədakarlıq sayəsində xalqımız müqəddəs arzusuna çatmış, milli azadlığına qovuşmuşdur.

Bildirilmişdir ki, ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan tarixində Qanlı Yanvar faciəsi kimi yadda qalan 1990-cı ilin 20 Yanvar hadisələrinə hüquqi-siyasi qiymət verilmişdir. Kollecin direktoru 20 Yanvar faciəsinin Azərbaycan tarixində hüznlü gün olması ilə bərabər, həm də xalqımızın milli qürur günü olduğunu vurğulamış, bu tarixin gənc nəslin vətənpərvərlik ruhunun yüksəldilməsində mühüm rolu olduğunu qeyd etmişdir.

Tədbirdə kollecin müəllimlərindən Xəzər Hüseynov, Səadət Qocayeva, Tələbə-Gənclər Təşkilatının sədri Arzu Adıgözəlov çıxış edərək bildirmişlər ki, həmin gecə Vətən övladları öz qanları ilə yeni bir tarix yazmışlar. Haqq-ədalət, müstəqilliyimizin bərpası uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Sonra kollec tələbələrinin ifasında 20 Yanvar faciəsinə və qəhrəmanlıq tariximizə həsr edilmiş şeirlər səsləndirilmiş, "İmperiyanın toqquşması – 20 Yanvar" filmi nümayiş olunmuşdur.

Xəstəxana və muzey binaları təhvilə hazırdır

Muxtar respublikamızda səhiyyə sahəsində həyata keçirilən quruculuq tədbirləri Babək rayonunu da əhatə etmiş, rayon Mərkəzi Xəstəxanası üçün yeni bina tikilmişdir. 30 çarpayılıq xəstəxana binası zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Burada Poliklinika, Ümumi stasionar, Ginekologiya və Doğuş, Təcili və təxirəsalınmaz yardım şöbələri, eləcə də Hemodializ bölməsi fəaliyyət göstərəcəkdir. Binanın zirzəmisində müasir laboratoriya, fizioterapiya otaqları, qazanxana, camaşırxana və yeməkxana yerləşir. Bununla yanaşı, xəstəxanada tibb işçiləri üçün otaqlar, iclas zalı və kitabxana yaradılmış, iki lift quraşdırılmışdır. Xəstəxanada quraşdırılmış müasir tibbi avadanlıqlar xəstələrin müayinə və müalicəsini yüksək səviyyədə aparmağa imkan verəcəkdir.

* * *

Rayonda Tarix-Diyarşünaslıq Muzeyinin binası əsaslı şəkildə yenidən qurularaq təhvilə hazır vəziyyətə gətirilib. Ulu keçmişimizə böyük diqqət və ehtiramın ifadəsi olan bu yenidənqurma ünvanında da müasir memarlıq elementlərindən istifadəyə üstünlük verilib. Muzeyin direktoru Kamran Rəhimovun verdiyi məlumata görə, bina ekspozisiya zalı, fond və iş otaqlarından ibarətdir. Muzeydə eksponatların nümayiş olunduğu vitrinlər dəyişdirilib, zalda müasir işıqlandırma və istilik sistemi qurulub.

Uşaq bağçası üçün yeni bina tikilir

Babək qəsəbəsində yeni quruculuq ünvanlarından biri olan uşaq bağçası binasında isə tikinti işləri davam etdirilir. Uşaq bağçası binasının tikintisinə ötən ilin fevral ayından başlanılıb. İnşaat işləri "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılır. 220 yerlik nəzərdə tutulmuş uşaq bağçası zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. İş icraçısı İbrahim Hüseynovun dediyinə görə, ümumi ərazisi 1000 kvadratmetr olan binanın zirzəmi hissəsində yeməkxana, qarderob, tibb xidməti otağı, yataqxana və oyun zalı yerləşəcək. Birinci mərtəbədə valideynlər otağı, müdiriyyət, 2-ci və 3-cü mərtəbələrin hər birində metodik kabinet olmaqla, bütün mərtəbələrdə yataqxana və oyun zalları fəaliyyət göstərəcək.

Binanın dam örtüyü vurulub, bütün dəhlizlərdə döşəmə işləri yekunlaşıb, hazırda pəncərələr salınır. Yaxın günlərdə otaqların döşəməsi vurulacaq, boyaq işlərinə başlanılacaq.

Adıçəkilən obyektin vaxtında istifadəyə verilməsi üçün inşaatçılar səylə çalışırlar.

Yol-nəqliyyat sektorunun inkişafı diqqət mərkəzindədir

Muxtar respublikada bütün infrastruktur sahələri kimi, yol-nəqliyyat infrastrukturunun inkişafı da diqqət mərkəzində saxlanılır, nəqliyyat kompleksinin yenilənməsinə xüsusi önəm verilir, beynəlxalq standartlara uyğun yeni yollar salınır. Bu səbəbdəndir ki, muxtar respublikada magistral yolların böyük əksəriyyəti yenidən qurularaq istifadəyə verilib. Bununla yanaşı, kənddaxili və kəndlərarası yolların da abadlaşdırılmasına diqqət ildən-ilə artır. 2013-cü ildə də bu istiqamətdə xeyli iş görülüb. Belə ki, ümumilikdə, 164 kilometr uzunluğunda yollar salınaraq və ya əsaslı təmir olunaraq istismara verilib. Quruculuq tədbirləri körpüləri də əhatə edib, 21 körpü tikilib, 12 körpü isə təmir olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 5 mart tarixli Sərəncamı ilə Babək rayonunun 13 yaşayış məntəqəsini əhatə edən və 6 milyon 300 min manat vəsait ayrılan 25,6 kilometr uzunluğunda Hacıvar-Vayxır-Sirab yolunun tikintisində işlər başa çatdırılıb.

Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin maddi-texniki bazası gücləndirilir

Son illər muxtar respublikada həyata keçirilən meliorasiya-irriqasiya tədbirlərinin geniş vüsət alması bu sahədə olan çətinlikləri aradan qaldırıb, içməli və təsərrüfat suyuna olan tələbatın ödənilməsi istiqamətində yüksək göstəricilərə nail olunub. 2013-cü ildə Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, 4 nasos stansiyası, 3 subartezian quyusu, 11 kəhriz istifadəyə verilib. Kommunal-məişət sistemlərinin yaxşılaşdırılması əhalinin rahatlığına və yaşayış səviyyəsinin yüksəldilməsinə xidmət edən tədbirlərin tərkib hissəsidir. Bunu nəzərə alaraq ötən il Naxçıvan şəhərində, rayon mərkəzlərində və ətraf kəndlərdə içməli su xətlərinin və kanalizasiya şəbəkələrinin tikintisi davam etdirilib. Belə tədbirlərin vaxtlı-vaxtında yerinə yetirilməsini təmin etmək üçün hərtərəfli qaygı ilə əhatə edilən Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin maddi-texniki bazasının gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır, mal-material ehtiyatı yaradılmasına ciddi önəm verilir. Komitənin Suvarma sistemlərinin istismarı şöbəsinin müdiri Mübariz Məmmədovdan aldığımız məlumata görə, həmin tədbirlərin davamı kimi, bu günlərdə komitəyə 11 yeni texnika alınıb. Yüksək texniki göstəricilərə malik olan 4 adda 6 ədəd təkərli, 3 adda 4 ədəd tırtıllı ekskavatorlar Amerika Birləşmiş Ştatları, 1 ədəd özüboşaldan ağırtonnajlı yük avtomaşını isə Almaniya istehsalıdır.

Həmin texnikalar komitənin rayonlarda fəaliyyət göstərən idarələrinə veriləcək.

Abonentlər fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilir

Əhalinin fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilməsi, xətt təsərrüfatında baş verə biləcək hər hansı bir nasazlığın vaxtında aradan qaldırılması üçün "Naxçıvanqaz" İstehsalat Birliyi, onun tabeliyində olan şəhər və rayon Qaz İstismarı idarələri tərəfindən kompleks tədbirlər həyata keçirilir. Birlikdən aldığımız məlumata görə, muxtar respublikada, ümumilikdə, 82 min 753 istehlakçı təbii qazdan istifadə edir ki, onlardan 1176 abonent, 121 müəssisə ötən il təbii qazla təmin olunmuşdur.

Qaz təsərrüfatında istismarda olan magistral, daşıyıcı və paylayıcı qaz kəmərlərinə, eləcə də onlar üzərindəki kranlara, siyirtmələrə və qaztənzimləyici şkaflara müntəzəm olaraq texniki baxış keçirilmiş, aşkar edilmiş nöqsanlar aradan qaldırılmışdır. İstehlakçılara verilən təbii qazın təzyiqinə hər ay texnoloji rejim tətbiq edilmiş və ölçü qovşaqlarında nəzarət işi diqqətdə saxlanılmışdır. Qaz itkisi olan istiqamətlərin müəyyən edilməsi və onları doğuran səbəblərin aradan qaldırılması üçün təmir-bərpa işləri aparılmışdır.

Abonentlərin təhlükəsizliyi də diqqət mərkəzində saxlanılmış, baş verə biləcək hər hansı bir qəzanın vaxtında aradan qaldırılması üçün şəhər və rayon Qaz İstismarı idarələrində qəza-dispetçer xidmətlərinin 24 saat fəaliyyəti təmin edilmişdir.

Təbii qazın itkisiz olaraq yerlərə çatdırılması, israfçılığın qarşısının alınması və sərf olunan mavi yanacağın dəyərinin vaxtında ödənilməsi ilə əlaqədar tədbirlər davam etdirilmiş, istismarda olan qaz sayğaclarına mütəmadi olaraq baxışlar keçirilmiş, cari təmirə ehtiyacı olan sayğaclar təmir edilmiş, təmiri mümkün olmayan 2728 ədəd sayğac isə yenisi ilə əvəzlənmişdir.

Payız-qış mövsümünə hazırlıqla bağlı kompleks tədbirlər həyata keçirilmiş, baş verə biləcək qəzaların qarşısının alınması və nəticələrinin qısa müddətdə aradan qaldırılması üçün qaz təsərrüfatında istifadə olunan material və avadanlıqların ehtiyat fondu yaradılmışdır.

Əhali abunəçiləri arasında qaz avadanlıqlarından düzgün istifadə barədə izahat və maarifləndirmə işləri aparılmışdır.

Qış mövsümündə fasiləsiz qaz nəqlini təmin etmək üçün mütəmadi olaraq qaz təsərrüfatına texniki baxış keçirilmiş, yaradılmış mal-material ehtiyatından səmərəli istifadə olunmuşdur. Təbii qazdan istifadə zamanı israfçılığın qarşısının alınması məqsədilə qaz xətlərindəki nasazlıqlar və sayğacdankənar istifadələr vaxtında müəyyən edilərək tədbirlər görülmüş, təbii qazın verilməsində müşahidə olunan texniki itkinin minimuma endirilməsi istiqamətində işlər davam etdirilmişdir.

Ötən il sərf olunan qazın dəyərinin vaxtında ödənilməsi də diqqət mərkəzində saxlanılmış, enerji istehsal edən müəssisələr nəzərə alınmadan istehlak olunan 151 milyon 760 min 906 kubmetr qazın satışından 15 milyon 186 min 441 manat vəsait əldə edilmiş, ödəmə 100 faiz olmuşdur. Əhali abunəçiləri üzrə istehlak olunan 76 milyon 976 min 414 kubmetr qazın satışından toplanan vəsait 7 milyon 705 min 792 manata çatmışdır ki, bu da 100 faiz ödəmə deməkdir.

Xəbərlər şöbəsi

Ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlətin strateji məqsədidir

BMT-nin ərzaq təhlükəsizliyi barədə hesabatına əsasən, 2011-2013-cü illər ərzində dünya əhalisinin 12 faizinin, yəni 842 milyon insanın xroniki aclıqdan əziyyət çəkdiyi bildirilir. Dünya əhalisinin sürətlə artdığı, təbii ehtiyatların getdikcə tükəndiyi bir şəraitdə ərzaq təhlükəsizliyinin təmin edilməsi qlobal problemə çevrilməkdədir.

Qloballaşma prosesləri ərzaq məhsullarına olan tələbatın da yerli istehsal hesabına ödənilməsini zəruri etmişdir. Bu problem Azərbaycanda ərzaq təminatının maddi əsasını təşkil edən sahələrin məhz regionlar üzrə ixtisaslaşmasına səbəb olmuşdur.

İnkişaf etmiş ölkələrin təcrübəsi belə qənaətə gəlməyə əsas verir ki, ölkənin ərzaq təhlükəsizliyində idxal kanallarından asılılığın kifayət qədər zərərli nəticələri ola bilər. Çünki idxaldan asılılıq, son nəticədə, ərzaq bazarının strukturuna kifayət qədər mənfi təsir göstərir. Ona görə də regionlarda ərzaq təminatının yaxşılaşdırılması, həmçinin kənd təsərrüfatının təkmilləşdirilməsi makroiqtisadi baxımdan ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində ən mühüm vasitələrdən hesab edilir. Bu səbəbdən ölkəmizdə qeyri-neft sektorunun əsas elementlərindən biri olan kənd təsərrüfatı və emal sənayesində makroiqtisadi və dinamik inkişafın təmin edilməsi daim ön plana çəkilir. Bu baxımdan daxili və xarici bazarlarda satışın dəstəklənməsi, yerli əmtəə istehsalçılarının stimullaşdırılması, aqrar sənaye kompleksində texniki xidmət sistemləri şəbəkəsinin genişləndirilməsi, kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi üçün tədbirlər həyata keçirilir. Bütün bunlar kənd təsərrüfatı sahələrinin inkişafının dəstəklənməsi deməkdir ki, bu da, öz növbəsində, yeyinti sənayesinin inkişafına stimul yaradır.

Naxçıvan Muxtar Respublikası blokada şəraitində olan iqtisadi region olduğu üçün burada sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsinə, ərzaq təminatının yaxşılaşdırılmasına xüsusi önəm verilir. Bu baxımdan "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" müstəsna əhəmiyyətə malikdir. Dövlət proqramı qloballaşma şəraitində dünya ərzaq bazarında müşahidə olunan qeyri-sabitliyin ərzaq məhsullarının qiymətinə təsirinin neytrallaşdırılmasına, ərzaq bazarının idxaldan asılılığının aradan qaldırılmasına xidmət edən mühüm dövlət sənədidir. Proqramın əsas məqsədi hər bir vətəndaşın sağlam və məhsuldar həyat tərzi üçün onun qəbul olunmuş normalara uyğun ərzaq məhsulları ilə tam təmin edilməsinə nail olmaqdır. Dövlət proqramından irəli gələn vəzifələrin uğurla icra edilməsi nəticəsində əsas ərzaq məhsullarının istehsalında müsbət nəticələr əldə edilmiş, yeni emal müəssisələrinin yaradılması, məhsul istehsalçılarına dövlət maliyyə yardımının göstərilməsi, güzəştli sərtlərlə gübrə satışının təşkili, məhsulun satışı üçün yarmarkaların keçirilməsi kənd təsərrüfatı sahəsində məhsul istehsalının həcminin ilbəil artmasına səbəb olmuşdur.

1995-ci ildən etibarən muxtar respublikada həyata keçirilən aqrar islahatlar və bazar iqtisadiyyatına keçidin mühüm elementlərindən olan sahibkarlığın inkişafı, bu sahəyə dövlət dəstəyinin göstərilməsi ərzaq təhlükəsizliyi sahəsində mühüm dəyişikliklərin yaranmasına gətirib çıxarmış, müstəqilliyin əvvəllərində mövcud olan qıtlıq tamamilə aradan qaldırılmış, ərzaq bazarında rəqabət səviyyəsinin yüksəlməsinə əlverişli şərait yaranmışdır. Bu isə istehlakçıların seçim imkanlarının genişlənməsinə səbəb olmuşdur. Əhalinin ərzaq təhlükəsizliyinin yaxşılaşdırılması istehsalın intensivləşdirilməsi ilə bilavasitə bağlı olduğu üçün kənd təsərrüfatı bitkilərinin məhsuldarlıq səviyyəsinin yüksəldilməsi, intensiv texnologiyaların tətbiqi, torpaqların faktiki və potensial məhsuldarlığı arasındakı fərqlərin aradan qaldırılması, bazarın konyukturu nəzərə alınmaqla istehsalın sahə strukturunun təkmilləşdirilməsi həllivacib məsələ kimi qarşıya qoyulmuşdur.

Görülən tədbirlər nəticəsində 2013-cü ildə muxtar respublikada 337 milyon manatdan çox kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 1995-ci ilə nisbətən 8,7 dəfə çoxdur. Mövcud əkinəyararlı torpaqlardan səmərəli istifadənin əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsində rolu nəzərə alınaraq ötən il 60 min 127 hektar sahədə əkin aparılmışdır ki, bu da 1995-ci ildən 2 dəfə çoxdur.

Naxçıvan Muxtar Respublikası kifayət qədər geniş iqtisadi potensiala və ixtisaslaşma istiqamətinə malikdir. Həm dağlıq, həm də düzənlik ərazilərə malik olması burada bitkiçiliyin və heyvandarlığın inkişafına əlverişli şərait yaratmışdır.

Ərzaq təhlükəsizliyinin təminatında strateji əhəmiyyəti olan taxılçılıq kənd təsərrüfatı sektorunun aparıcı sahələrindən biri olub, əhalinin çörək və çörək məmulatlarına olan tələbatını ödəməklə yanaşı, həm də heyvandarlığın qüvvəli və qaba yemə olan tələbatının ödənilməsində mühüm rol oynayır. Ona görə də taxılçılıq təsərrüfatının inkişafına diqqətin artırılması vacib məsələlərdən biri olmuşdur. 2013-cü ildə 102 min 960 ton taxıl istehsal olunmuşdur. Bu, 1995-ci ilə nisbətən 4,4 dəfə çoxdur. Taxıldan sonra strateji əhəmiyyət kəsb edən kartof istehsalında isə bu dövrlər ərzində 102,5 dəfə artım müşahidə olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının daha çox meyvəçilik və tərəvəzçilik üzrə ixtisaslaşması nəinki ərzaq təminatının yaxşılaşmasına, daxili və xarici bazara çıxış imkanlarının genişlənməsinə də potensial şərait yaradır. Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi nəticəsində bu istiqamətdə xeyli uğurlar əldə edilmiş, ötən il 67 min tona yaxın tərəvəz, 58 min tondan çox meyvə və giləmeyvə tədarük olunmuşdur ki, bu da 1995-ci illə müqayisədə müvafiq olaraq 51,5 və 3 dəfə çoxdur.

Heyvandarlıq sektoru kənd təsərrüfatının ən mühüm sahələrindən biri olub, əhalinin ət, süd, yumurta məhsullarına olan tələbatının ödənilməsində əhəmiyyətli rol oynamaqla yanaşı, həm də sənayenin xammala olan tələbatının ödənilməsində xüsusi çəkiyə malikdir. Son 5 ildə muxtar respublikaya 1678 baş damazlıq və cins mal-qara gətirilməsi əhalinin heyvandarlıq məhsulları ilə etibarlı təminatı üçün zəmin yaratmış, heyvanların baş sayında və heyvandarlıq məhsullarının istehsalında artıma nail olunmuşdur.

1999-cu ildən etibarən kənd təsərrüfatı əmtəə istehsalçılarının torpaq vergisi istisna olmaqla digər vergi növlərindən azad edilməsi bu sahədə fəaliyyət göstərən istehsalçıların iqtisadi dayanıqlılığının artırılmasına xidmət etmişdir. Fəaliyyət göstərən əmtəə istehsalçılarının iqtisadi cəhətdən stimullaşdırılması və güzəştli şərtlərlə kreditləşdirilməsi ərzaq təminatının yaxşılaşdırılmasının başlıca istiqamətlərindəndir. Eyni zamanda Sahibkarlığa Kömək Fondu tərəfindən kənd təsərrüfatı əmtəə istehsalçılarına və emal müəssisələrinə güzəştli şərtlərlə kreditlər verilir ki, bu da yeni emal müəssisələrinin fəaliyyətə başlamasına əlverişli şərait yaradır. Hazırda muxtar respublikada 115 növdə, 459 çeşiddə ərzaq məhsulu istehsal olunur və 106 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Əmək qabiliyyətli əhalinin iqtisadi fəallığının artırılması, tam məşğulluğun təmin edilməsi ilə alıcılıq qabiliyyətinin yüksəldilməsi ərzaq təhlükəsizliyinin əsas amillərindəndir. Əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsi ərzaq bazarında əmtəə dövriyyəsinin həcminin artmasına, ərzaq məhsulları istehlakçısının çoxalmasına və onun strukturunda inkişafa gətirib çıxarır. Ərzaq məhsulları ilə təminat cəmiyyətdə sosial stabilliyin qorunmasının başlıca şərtidir. Ona görə də dövlətin siyasətinin başlıca istiqamətləri cəmiyyət üzvlərinin yaşayış səviyyələrini yaxşılaşdırmaqdan, onların alıcılıq qabiliyyətinin yüksəldilməsini təmin etməkdən ibarət olmuşdur. Bu istiqamətdə sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması, əməkhaqlarının artırılması, aztəminatlı əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması görülən tədbirlərin əsasını təşkil edir. Son illər Naxçıvan şəhərində davamlı olaraq ərzaq yarmarkaları keçirilir ki, bunun da əsas məqsədi, ilk növbədə, əhalinin bazar qiymətləri ilə müqayisədə nisbətən ucuz qiymətə keyfiyyətli ərzaq məhsulları əldə etməsinə şərait yaratmaqdır. Belə bir şəraitdə əmtəə istehsalçıları öz məhsullarını birbaşa istehlakçıya təklif etmək imkanına malik olurlar. 2013-cü ildə əhali gəlirləri əvvəlki ilə nisbətən 7 faiz artmışdır ki, bu da alıcılıq qabiliyyətinin yüksəlməsinə öz müsbət təsirini göstərmişdir.

Ölkə əhalisinin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və daha da yaxşılaşdırılması, təbii fəlakətlər zamanı ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə dövlət ehtiyatlarının yaradılması zəruri hesab edilir. Hazırda muxtar respublikada taxılı uzun müddət saxlamağa imkan verən anbarların həcmi 27 min tona, kənd təsərrüfatı məhsullarının saxlanması və satışını təmin edən soyuducu anbarlarının sayı 17-yə, tutumu isə 12 min tona çatdırılmışdır.

Aparılan məqsədyönlü tədbirlər onu deməyə əsas verir ki, muxtar respublikamızın ərzaq təhlükəsizliyinin təmin olunması iqtisadi strategiyanın əsas hədəflərindən biri hesab edilir və əhalinin kənd təsərrüfatı məhsulları ilə təminatına etibarlı zəmin yaradır.

Mehriban İMANOVA
iqtisad üzrə fəlsəfə doktoru

Maddi nemətlər və xidmətlər istehsalı insanın rifahına təsir edən, onun həyatını dəyişdirən ən mühüm kəşflərdəndir. Bir neçə yüzillik tarixə malik sənaye inqilabının baş verdiyi Qərbi Avropadan tutmuş indiki Uzaq Şərq sənaye nəhənglərinə qədər ölkələr məhz bu yolla öz iqtisadi qüdrətlərini artırmağın və əməyin daha çox dəyərləndirilməsinin yolunu tapmış, təbii ehtiyatları və yaradıcı insan qabiliyyətini maddi nemətlər şəklində reallaşdıran güclü sənaye potensialı qurmuşlar.

Sənaye istehsalı iqtisadi güc deməkdir

Sənayenin ölkə iqtisadiyyatında, onun ixrac potensialının artırılmasında hansı gücə malik olduğunu xatırlatmağa ehtiyac yoxdur. Sənaye elə bir təsərrüfat sahəsidir ki, burada cəmiyyətin bütün imkanları bir qüvvə şəklində birləşib, insan rifahına xidmət edən son məhsul istehsalına yönəldilir. Belə son məhsul isə öz çeşidinə və təyinatına görə minlərlədir. Düymədən tutmuş fəzadakı peyklərə qədər nə varsa, bunların hamısı sənayedə və sənaye sahəsində yüzillərlə qazanılmış təcrübə sayəsində hasilə gəlir. Ona görə də sənayenin inkişafı təkcə bəzilərinin dar mənadakı fikrincə, sadəcə, adamlara iş yeri qazandıran zavod və ya fabriklər tikilməsi kimi deyil, həm də ölkənin iqtisadi təhlükəsizliyinə xidmət edən, regionun əmək və təbii ehtiyatlarından səmərəli istifadəyə imkan verən, idxal və ixrac arasındakı balansı tənzimləyən, ekoloji vəziyyəti nəzarətdə saxlamaqla elm və texnikanın ən yeni innovativ nailiyyətlərinin tətbiq olunduğu kompleks kimi dərk edilməlidir. Sənaye elə bir səviyyəli işlərin nəticəsidir ki, burada istehsal olunan son məhsulda hər kəsin – qərar verən ali idarəedicidən elm adamına, sahibkara, mühəndisə, fəhləyə, nəqliyyatçıya, anbardara, satıcıya qədər hər kəsin əməyinin izləri görünür. Hazır sənaye məhsulu xammal təchizatçısı ilə sənaye müəssisəsi sahibkarı arasında qurulmuş əlaqələrin nəticəsində ortaya çıxsa da, onun istehlak bazarındakı əhəmiyyəti, demək olar ki, əhalinin hər nəfərini maraqlandırır. Müasir dövrdə dünyada əmək bölgüsünün dərinləşməsi və eyni zamanda xarici iqtisadi əlaqələrin genişlənməsi ilə bu proseslər daha da qlobal xarakter almağa başlamış, ölkələrin ixrac etdikləri sənaye məhsulları valyuta gəlirlərindən əlavə, həm də onların iqtisadi-mədəni imkanları haqda təsəvvür yaradan amillər olmuşlar.

Ölkəmizdə həyata keçirilən çoxşaxəli iqtisadi inkişaf strategiyasının əsas məqsədlərindən biri də sənaye məhsulları istehsalı ilə regionların tarazlı inkişafına, o cümlədən yerli istehsal və əmək potensialından səmərəli istifadə etməklə ixracyönümlü hazır məhsul istehsalına nail olmaqdan ibarətdir. Regional inkişafa göstərilən bu vacib diqqət ölkəmizin bütün regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında da sənayenin inkişafına şərait yaratmış, artıq muxtar respublikamız öz inkişafının yeni mərhələsinə – ixracyönümlü inkişaf mərhələsinə qədəm qoymuşdur.

Muxtar respublikamızda geniş sənaye məhsulu istehsalının təşkili asan başa gələn proses olmamışdır. Bunlar gərgin əməyin və çoxmərhələli tədbirlərin nəticəsində mümkün olmuşdur. Blokada şəraitinin çətinliklərinə baxmayaraq, müstəqillik dövrlərində ilk mərhələdə sənaye məhsulu istehsalı üçün köhnədənqalma infrastrukturun yenilənməsi, magistral yolların əsaslı şəkildə yenidən qurulması və muxtar respublikada biznes mühitinin yaxşılaşdırılması məsələləri uğurla həll olunmuş və nəticədə, region investor sahibkarlar üçün cazibədar bir yerə çevrilmişdir. Muxtar respublikada özəl sahibkarlığa yaradılan şərait yerli imkanlar hesabına yüzlərlə məhsul istehsalını şərtləndirmişdir. Muxtar respublikaya müasir texnoloji avadanlıqların gətirilməsi üçün görülən işlər burada ən mürəkkəb texnoloji iş şəraitinin mənimsənilməsinə də şərait yaratmış, naxçıvanlı mühəndis və fəhlələr dünyadakı texnoloji yeniliklərin qısa müddətdə istehsalatda tətbiqinə nail olmuşlar. İstehsalın təhlükəsizliyinə göstərilən diqqət, insanların sağlamlığının, iş qüvvəsinin hər şeydən üstün qiymətləndirilməsi, sənaye sahələrində işləyənlərin sosial və əmək şəraitinin yaxşılaşdırılması, onların icbari sığortasının təşkili bu sahənin inkişafına öz təsirini göstərən amillərdən olmuşdur. Məhz belə şəraitin nəticəsi də öz bəhrəsini verməkdədir. Təkcə yola saldığımız 2013-cü ildə Naxçıvan Muxtar Respublikasında istehsal olunmuş 863 milyon manatlıq sənaye məhsulları öz istehsalçısına qazanc, regionun büdcəsinə gəlir, əhalisinə rifah gətirmişdir. Muxtar respublikanın sənaye sahələrində istehsal olunan 529 çeşiddə qeyri-ərzaq məhsulu bir vaxtlar xaricdən gətirilən və ya primitiv, köhnə texnologiya ilə hazırlanan məhsulları keyfiyyətcə dəfələrlə üstələyib müvəffəqiyyətlə əvəz edərək istehlakçıların rəğbətini qazanır, ölkəmizin digər regionlarında və xarici ölkələrdə özünə alıcı tapır.

2014-cü il ölkəmizdə "Sənaye ili" elan olunmuşdur. Bu mühüm qərar Azərbaycanın sahib olduğu bütün təbii, iqlim, yeraltı, yerüstü ehtiyatlarının və insan resurslarının ölkəmizin güclənməsi naminə bir daha səfərbər olunmasına yönəlmişdir. Bunun hədəfində isə ölkəmizin sənaye potensialının əvvəlki dövrlərdə olduğu kimi, paytaxt və ətrafında deyil, onun hər yerində yüksəldilməsi durur. Keçdiyimiz inkişaf yolu və əldə etdiyimiz təcrübə onu deməyə əsas verir ki, Naxçıvan Muxtar Respublikası özünün bütün potensialı ilə bu vəzifənin də öhdəsindən layiqincə gələcək. İndi buna bizim daha çox imkanlarımız var.

✍ **Əli CABBAROV**

Qriboyedovun erməni “sevgisi” və acı sonluq

“Əzizim! Mələyim mənim, Allaha dua eləyək ki, bundan sonra bizi bir də ayrı salmasın. Burada əsirlər məni dəli eləyiblər. Bəzilərini geri vermirlər, bir başqaları isə özləri qayıtmaq istəmirlər. Onların ucbatından burada hədər vaxt itirdim, tamamilə hədər. Nə vaxt sənin yanına qayıdacağam? Bilirsənmi, səndən ötrü yaman narahatam... Bir az əvvəl şəhərə gəzməyə çıxmışdım; zəngin məscidlər, bazar, karvansara İran dövlətinin özü kimi xarabazarlıq təsiri bağışladı. Çox güman ki, biz gələn il bu yerlərə sənlə birlikdə gələcəyik və yəqin, onda hər şey gözünə yaxşı görkəmdə dəyəcək”.

XIX əsr Rusiya ədəbi mühitində yetişmiş istedadlı yazıçı, eyni zamanda siyasətçi Aleksandr Sergeyeviç Qriboyedov ağlına da gətirməzdi ki, qalib ölkənin səfiri kimi məğlub ölkədə sevgilisinə yazdığı bu məktubdan bir müddət sonra o, həyatda olmayacaq. Əlbəttə, “Ağıldan bəla” əsəri ilə yazıçı istedadını rus ədəbiyyatında isbatlamış bu şəxsin həm də uğurlu siyasi karyerasının olması və dünyanın ən böyük dövlətinin səfarətinə başçılıq etməsi onun gözlərini tutmuşdu. Kim idi A.S.Qriboyedov?

A.S.Qriboyedov 1795-ci ildə polyak əsilli zabitlər ailəsində anadan olmuşdur. Təhsil aldığı müddətdə fransız, ingilis və italyan, alman, daha sonra yunan, latın, fars, ərəb və türk dillərinə yiyələnir. Universitetdə oxuyarkən onun poetik istedadı da üzə çıxır və kiçik əsərlər yazmağa başlayır.

Napoleon tərəfindən başlanan müharibə onun planlarını dəyişir – o, kiçik zabit kimi müharibəyə yollanır. Müharibədən qayıtdıqdan sonra Peterburqa köçür, bir çox dekabristlərin, o cümlədən Puşkinin də çalışdığı Xarici İşlər Kollegiyası İdarəsinə işə düzəlir.

1818-ci ildə rus missiyasının katibi kimi İrana göndərilir və burada iki il işləyir. Onun İranda yaşadığı həyat, əsərləri və gündəliklərində yer alır. 1821-ci ildə İrandan qayıtdıqdan sonra Qafqaz generalı A.Yermolovun rəhbərlik etdiyi ordunun diplomatik katibi vəzifəsinə təyin edilir.

1826-cı ildə çar hakimiyyəti tərəfindən dekabristlərin işi üzrə həbs edilir. O, bütün məxfi sənədləri öncədən məhv edir və buna görə də günahı sübuta yetirilmədiyindən azadlığa buraxılır. Yenidən Qafqaza qayıdaraq diplomat vəzifəsində çalışır. 1827-ci ildə Türkiyə ilə İran arasında danışıqlarda vasitəçi kimi çıxış edir. 1828-ci ildə İranla imzalanan Türkmənçay müqaviləsinin hazırlanmasında iştirak edir. Bundan sonra isə o, İrana rəsmi səfir təyin edilir. Elə həmin ildə o, Tehranda səfirlik binasında qətlə yetirilir və cənazəsi Tiflisə aparılır.

Azərbaycana böyük erməni köçü

Türkmənçay müqaviləsinin imzalanmasından sonra polkovnik Lazarev ermənilərin köçürülməsi işinin ona tapşırılması ilə əlaqədar olaraq, 1828-ci il fevral ayının 14-də Paskeviçin qarşısında vəsatət qaldırdı. Onun fikrincə, ermənilər müharibənin gedişində Rusiyanın qələbəsi üçün əllərindən gələni etmişdilər və buna görə də onların Rusiyada yaşamaq arzusuna diqqətlə yanaşılmalı idi. İran ərazisində yaşayan ermənilərin sürətlə Rusiyaya köçürülməsinin təşkili üçün polkovnik Lazarev aşağıdakıları təklif edirdi:

1) köçürülmə işlərinə rəhbərlik etmək üçün Paskeviç tərəfindən ona yazılı sərəncam verilsin və bu sərəncamda köçənlər üçün nəzərdə tutulan güzəştlər də öz əksini tapsın; 2) köçürmə işlərinə rəhbərlik üçün qərargah yaradılsın və həmin qərargahda işləyə biləcək kadrların seçilməsi ona həvalə edilsin; 3) iqlim şəraitinə görə köçürülmə işləri ləngiyən yerləri rus ordusu tərk etməsin və köçənlər rus bölmələri tərəfindən müşayiət olunsun; 4) köçkünlər içərisində maddi imkanları zəif olanlara dövlət xəzinəsindən vəsait ayrılsın.

1828-ci ildə Naxçıvan və İrəvan xanlıqları ərazisindən yeni bir inzibati mərkəz – erməni vilayəti təşkil edildi. Bunun təşkili ilə azərbaycanlıların öz doğma torpaqlarında sıxışdırılması prosesi müntəzəm xarakter aldı. Hansı ki erməni vilayəti təşkil edilən zaman həmin ərazidə olan 752 yaşayış məntəqəsindən 62-si erməni kəndi idi. Paskeviçin Qafqaz rus ordusuna baş komandan təyin edilməsi və onun bacısı oğlu A.Qriboyedovun da Rusiya Xarici İşlər Nazirliyinin bölmələrindən birinə başçılığı bu prosesi daha da sürətləndirdi.

Hələ bu müqavilə bağlanmazdan əvvəl belə, ermənilərin Arazdan şimala köçürülməsi artıq qəti bir fikir kimi formalaşmışdı. Rusiya dövləti tərəfindən İrana qarşı irəli sürülməsi planlaşdırılan strateji əhəmiyyətli tələblərdən biri də İranda yaşayan ermənilərin Şimali Azərbaycan ərazisinə buraxılması idi. Rusiya tərəfindən danışıqlarda iştirak edən nümayəndələr də belə bir məsələni həll etməli idilər. Erməni tarixçiləri həmin məsələnin İran tərəfinə qəbul etdirilməsində A.S.Qriboyedovun geniş fəaliyyət göstərdiyini yazırdılar.

Amma ermənilərin köçürülməsinin təşəbbüsçülərindən olan A.S.Qriboyedov həmin məsələ ilə əlaqədar olaraq yazırdı: “Ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara əbədi sahib duracaqlarından müsəlmanlar içərisində yaranan qorxunu aradan qaldırmaq və onların düşdükləri ağır vəziyyətin uzun sürməyəcəyini bildirməklə onları sakitləşdirmək məsələsini biz dəfələrlə götür-qoy etmişdik”.

1827-ci ilin noyabr ayında Cənubi Azərbaycan ərazisindəki Dehqarqan məntəqəsində danışıqlar aparılarkən Nersesin təklifi əsasında İran ermənilərinin ruhani nümayəndələri Paskeviç və Qriboyedovla görüşmüş və onlara həm qayğılarını, həm də tələblərini çatdırmışdılar. Dekabr ayında Paskeviç Tiflisin hərbi qubernatoru general Sipyaginə göndərdiyi məktubda qeyd etmişdi ki, Urmiya ətrafında yaşayan 15 min yunan və erməni Rusiyanın ərazilərinə köçmək istəyir. General Sipyagin isə onların İrəvan və Naxçıvan ətrafında yerləşdirilməsini məqsədəuyğun bilmişdi.

Paskeviç tələb edirdi ki, köçürülənlərin İrəvan ətrafında yerləşdirilməsi ilə bərabər, Naxçıvan əyalətində, Qafan və Meqri ətrafında məskunlaşdırılması da diqqət mərkəzində saxlanılsın. Görünür, şimala köçmək istəyənlər İrəvan xanlığı ərazisində yerləşdirilməyə daha çox meyil edirmişlər. Rusiyanın maraqları isə onların sərhəd boyunca bərabər yerləşdirilməsini və bununla da, sərhəd boyunca təhlükəsizlik zolağının yaradılmasını tələb edirdi.

Polkovnik Lazarev İran ərazisində yaşayan xristianların Şimali Azərbaycan xanlıqları ərazisinə köçürülməsinin nəticələri haqqında general Paskeviçə yazdığı 24 dekabr 1829-cu il tarixli hesabatında göstərirdi ki, köçürmə işləri 26 fevral 1828-ci ildə başlanmış və iyunun 11-də başa çatmışdır. Bu müddət ərzində 8249 xristian ailəsi (onlardan cəmi 100-ü aysor ailəsi olmuşdu, qalanları isə erməni ailələri idi) İrəvan, Naxçıvan və Qarabağ əyalətinə köçürülmüşdür. Köçürmə işlərinə xəzinədən 16 min qızıl pul və 400 gümüş pul xərclənmişdi. Guya köçmək istəyən 1500 erməni ailəsi isə İranda qalmışdı və onların köçürülməsinə imkan tapılmamışdı.

Mövcud faktlara görə, 5000 erməni ailəsinin İrəvan xanlığı ərazisində yerləşdirilməsi ortaya çıxanda erməni vilayətinin rəhbərliyindən Paskeviçə bildirilmişdi ki, burada onların hamısının dolandırılması üçün imkan yoxdur. Ona görə də ermənilərin Qarabağa göndərilməsi məqsədəuyğun sayılırdı. Polkovnik Lazarev də Paskeviçə yazdığı məktubunda bildirirdi ki, Urmiya, Səlmas və Xoydan olan köçkünlər artıq Naxçıvana çatmışlar. Onların arasında daha çox ehtiyac duyanlar Qarabağa göndərilsinlər. Orada 3000 erməni ailəsinin yeni məhsul əldə edilənə kimi ərzaqla təmin edilməsi imkanı var idi.

Ermənilərin əsas hissəsi azərbaycanlı ailələrin sıxışdırılması, onların adi hüquqlarının tapdanması hesabına məskunlaşdırılırdı. Azərbaycanlı əhali yüksək vergilər altında əzildiyi halda, İrandan gətirilən ermənilər ən yaxşı torpaqlarda yerləşdirilirdi. Bundan başqa, onların bəzən qarışıq yerləşdirilməsi iki tərəf arasında toqquşmalara da səbəb olurdu. Bu problem Rusiya tərəfi üçün də bir narahatlıq yaradırdı və həmin narahatlığın aradan qaldırılması üçün, yuxarıda qeyd edildiyi kimi, ermənilərin ayrıca yerləşdirilməsinə xüsusi diqqət yetirilirdi.

Ermənilər, əsasən, varlı adamların torpaqlarına köçürülürdü. Hətta Qriboyedovun özü də bu köçdən bəhs edərkən yazırdı ki, ermənilər, əsas etibarilə, müsəlman mülkədarlarının torpaqlarına köçürülürdülər.

İran ərazisindən köçürülən ermənilərin Şimali Azərbaycan ərazisində yerləşdirilməsi İrəvan, Naxçıvan və Qarabağda əhalinin etnik tərkibini dəyişdirə bilmişdi. Bu əyalətlərdə gəlmə ermənilərin artımı və yerli azərbaycanlıların çar təzyiqinə davam gətirməyərək İran və Türkiyə ərazilərinə köçməsi nəticəsində əhalinin etnik tərkibindəki fərq ermənilərin xeyrinə idi. Məsələn, erməni vilayətində Türkmənçay müqaviləsinə qədər 22500 erməni yaşayırdısa, sonrakı iki il ərzində onların sayı az qala üç dəfə artdı və 64450 nəfərə çatdırıldı. Naxçıvan əyalətində ermənilərin sayı 2150 nəfərdən 13771 nəfərə, Ordubad dairəsində isə 1880 nəfərdən 3389 nəfərə çatdırıldı.

Rus tarixçisi İ.Şopenin verdiyi məlumata görə, bütünlükdə İran ərazisindən erməni vilayətinə 6949 ailə və ya 35560 nəfər köçürülmüşdü. Erməni vilayəti təşkil edilərkən onun əhalisinin 81749 nəfərini (16078 ailə) azərbaycanlılar təşkil edirdilərsə, ermənilər cəmi 25131 nəfər (4428 ailə) təşkil edirdilər. İrandan ermənilərin köçürülməsi nəticəsində isə onların sayı 60691 nəfərə (11377 ailəyə) çatmışdı. Bununla da, ermənilərin sayı 24 faizdən 43 faizə çatdırılmışdı.

Bütünlükdə Türkmənçay sülh müqaviləsindən sonra İran ərazisindən Şimali Azərbaycan ərazisinə 6976 ailə və ya 35560 nəfər miqrasiya etmişdi. Həmin miqrantlardan 2557 ailə Naxçıvan əyalətinə göndərilmişdi. Onlardan da 416 ailə şəhərlərdə, 1869 ailə isə kəndlərdə məskunlaşdırılmışdı. Yalnız Ordubadın özünə 266 ailə gətirilmişdi. Qarabağ xanlığı ərazisində 3000 ailə və ya 15 min erməni yerləşdirilmişdi. İrəvan xanlığı ərazisində isə 1395 erməni ailəsi yerləşdirilmişdi.

Hətta V.A.Parsamyan açıq şəkildə etiraf edərək yazırdı: “Rusiyaya birləşənə qədər şərqi Ermənistanın 160 min 195 nəfər əhalisinin 56 305 nəfəri, yaxud 33,8 faizi erməni, 84089 nəfəri, yaxud 49,7 faizi müsəlman, 26911 nəfəri, yaxud 16 faizi kürd və 850 nəfəri, yaxud 0,5 faizi kənar millətlər olmuşdur”. Parsamyanın rəqəmləri, şübhəsiz ki, şişirdilmiş olsa da, yenə də ermənilərin yerli əhalidən az olması diqqət çəkir.

“Ağıldan bəla” müəllifinin ağıllı etirafı

Əslində, bu etirafa diqqət etsək, görərik ki, Qriboyedovun ermənilərə xüsusi sevgisi və pərəstişi olmayıb. O, istedadlı yazıçı olduğu qədər qızğın Rusiya təəssübkeşi idi. Onun üçün Rusiyanın cənubunda iki böyük müsəlman ölkəsi sayılan Osmanlı və İranla sərhəddə ermənilərdən ibarət bufer zonanın olması vacib idi və o, bu planı canla-başla yerinə yetirirdi. Lakin bütün bunlarla yanaşı, Qriboyedovun rus imperatoruna yazdığı məktubdakı bu fikirlər onun ermənilərin xarakterinə yaxından bələd olduğu və onları düzgün qiymətləndirdiyi anlamına gəlir. O yazır: “Əlahəzrət, mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verməyin. Onlar elə tayfadırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar və bura bizim qədim dədə-baba torpağımızdır deyəcəklər”.

Fikrimizcə, bu məktubundan sonra Qriboyedovun ziddiyyətli şəxsiyyət olması bir daha isbatlanır. Qeyd etdiyimiz ziddiyyətli xasiyyət sonda onun faciəvi şəkildə ölməsinə də səbəb oldu.

Qriboyedovun qətli

Gürcüstan əsilzadələrindən biri, İranda müsəlmanlığı qəbul edən Yaqub xan Fətəli şahın sarayında 30 ilə yaxın xidmətindən sonra Qriboyedovla görüşür və xahiş edir ki, onun öz vətəninə dönməsinə şərait yaratsın. Türkmənçay müqaviləsində Qafqaz əsilli xristian əhalinin istədikləri vaxt İranı tərk etmək və ölkələrinə qayıtmaq hüququ olduğu qeyd olunmuşdu. Olduqca varlı olan Yaqub xanın istəyi rus səfirini təəccübləndirsə də, onun ölkəsinə dönüşünü təmin etməklə razılaşdı. Yaqub xan isə, öz növbəsində, Qriboyedova şahın vəziri Asəf-əd Dövlənin sarayında iki erməni qadının vəziyyəti barədə danışaraq onların əsir kimi yaşadıqlarını və öz vətənlərinə dönmək istədiklərini söylədi. O, bunu onunla əsaslandırırdı ki, Asəf-əd Dövlə bu qadınları məcburi şəkildə müsəlmanlaşdırıb və örtünməyə məcbur edib. Belə olduqda Qriboyedov Allahyar Asəf-əd Dövlənin siğə qadını sayılan iki ermənin səfirliyə gətirilməsinə göstəriş verdi. Hadisədən xəbərdar olan vəzir şaha bildirmədən ruhaniləri topladı və namusunun tapdalandığını bildirdi. Tezliklə xəbər bütün Tehrana yayıldı. Əhalinin dindar kəsimi keçmiş vəzirin “namusunu təmizləmək” üçün bir qığılcıma bənd idi. Ruhanilərin verdiyi fitva qüvvəyə mindi və gözü qanla dolmuş əhali Tehranın Adinə məscidindən hərəkətə başladı. Hadisələr elə sürətlə cərəyan etdi ki, hətta Tehran valisi belə, müdaxilə etmək üçün lüzum görmədi. Onlar səfirliyin qarşısına çatdıqda Qriboyedov əhalini pulla ələ almağa cəhd etsə də, nəticə vermədi. Radikallaşmış əhali səfirliyə daxil olaraq səfir də daxil olmaqla qarşılarına çıxan hər kəsi qətlə yetirdilər. Yalnız səfirliyin katibi olan Malzov soyadlı şəxs qaçıb qurtula bildi.

Əminə Pakrəvan özünün “Abbas Mirzə və Azərbaycan” əsərində haqlı olaraq yazır: “Torpağının ruslar tərəfindən işğal olunmasına təpki göstərməyib susan bu əhali və onun dini rəhbərləri sanki İslamı qəbul etmiş iki erməni qadınının intiqamını almaq üçün macəra axtarırdılar... Xatırladım ki, rus ordusu Təbrizə girdiyi zaman din xadimlərinin istəyi üzərinə onların qarşısında qurban kəsmişdilər. Din xadimləri İslamın təhqir olunduğunu sanırdılar. Lakin iki erməni qadınının İslamla nə ilgisi ola bilərdi?...”

Beləliklə, keçmiş dekabrist, dövrünün sayılıb-seçilən yazarı və siyasətçisi olan Qriboyedov ömrünün gənc çağında özünün düşünülməmiş hərəkətinin və mənasız xristian təəssübkeşliyinin qurbanı oldu. Hansı ki onun ölümü çoxlarında, hətta Abbas Mirzənin özündə də elə təəssürat yaratmışdı ki, bu artıq sondur. Rusiya kimi güclü dövlət bu qətliamla barışmayacaq və müharibəyə başlayacaqdır. Lakin bu baş vermədi. Çünki çarın dekabristlərə nifrəti və Qriboyedovun da vaxtilə bu düşərgəyə mənsub olması onun bu işə soyuq yanaşması üçün əsas oldu. Bir sözlə, çar bir o qədər də bəyənmədiyi Qriboyedov üçün İrana müharibə elan etmədi.

Öz dikbaşlığı və çalışdığı regiondakı insanların xüsusiyyətlərini nəzərə almaması ucbatından öldürülən Qriboyedovun ermənilərin Şimali Azərbaycan torpaqlarında məskunlaşdırılması planı işə yaradı. Erməni məkrinin şahidi olan və bu baxımdan çarı xəbərdar edən yazıçının “fədakar”lığı nəticəsində bu gün Azərbaycan torpaqlarının böyük bir hissəsi işğal altındadır. Əvvəlcə İrəvan, Dərələyəz, Zəngəzur, Göyçə, daha sonra Qarabağ erməni məkrinin qurbanı oldu. Bu gün qədim Azərbaycan torpaqlarında bu qədər ermənin yaşaması və regionda erməni dövlətinin yaradılması məhz onun köçürmə planının acı nəticəsidir. Erməniləri himayə etməsi və eyni zamanda onlardan bufer vilayət düzəltmək istəyi həm A.S.Qriboyedovun, həm də Azərbaycan torpaqlarının gələcək faciəsinin başlanğıcı idi.

Anar TURAN

Müasir inkişaf özü ilə təzadlar da gətirir. Ötən yazılarımızın birində qeyd etmişdik ki, təxminən, 50-60 il bundan əvvəl insanların həyatında müxtəlif çətinliklər – ağır fiziki işlər, kasıbçılıq, müharibələrin vurduğu saysız-hesabsız zərərlər, səhiyyə ocaqlarının məhdud sayda olmasına baxmayaraq, xəstəliklər indiki qədər geniş yayılmamışdı. Müasir günümüzdə elm və texnologiyanın hərtərəfli inkişafına, sosial və iqtisadi vəziyyətin gündən-günə yaxşılaşmasına baxmayaraq, sağlamlıq arzusunda olanların sayı da hər gün artmaqdadır. Bununsa yeganə səbəbi odur ki, müasir bilik və bacarığa malik olan insan hər cür yenilik üzərində, necə deyərlər, baş sındırsa da, hələ də özünü sonadək öyrənə bilməyib. Elə öyrənə bilmədiyinə görə də müasir sivilizasiyanın "hərtərəfli hücumlarına" məruz qalır. Halbuki həyatda bütün vasitələr sadə, həm də çox sadə həqiqətlər üzərində qurulub. Təəccüblü olsa belə, bu sadəliyi pozan, onu gündən-günə mürəkkəbləşdirən də məhz sivilizasiyalı insandır.

Sağlam gələcəyə oturmaqla yox, addımlamaqla çata bilərik

"Min dərdin minbir dərmanı var"

Bu məsəlin ilk dəfə nə zaman və harada deyildiyini bilmirəm. Ancaq bilinən odur ki, həyatda dərmansız dərd yoxdur. Daha doğrusu, Uca Yaradan hər kəsə doğularkən sağlam orqanizm bəxş edib. Bu orqanizmin xidmətində durmağı isə orqanizmin sahibinə əmanət edib. Di gəl ki, insanoğlu ona əmanət edilmiş bu orqanizmi öz əməlləri ilə bərbad vəziyyətə salır. Sonra da başlayır şikayətlənməyə. Məsələnin maraqlı tərəfi isə ondan ibarətdir ki, bu bərbad vəziyyəti bütün canlılar içərisində yalnız şüurlu insan yarada bilir. Həyat və fəaliyyətlərini sağlam yaşamaq uğrunda mübarizəyə həsr etmiş Pol Breq, Katsudzo Nişi, Norman Uoker, Avraam Zalmanov, Mirzəkərim Norbekov kimi dünyanın məşhur alimləri özlərinin sağlamlıq sistemlərini yalnız və yalnız təbiət qanunlarına söykənərək yaratmışlar. Elə buna görə də adıçəkilən alimlər müasir tibbin çarəsiz qaldığı xərçəng, şəkər, vərəm kimi xəstəliklərin müalicə yollarını göstərmiş, eyni zamanda praktik yollarla bunu sübuta yetirərək qiymətli əsərlər yazmışlar. Həmin sağlamlıq sistemləri haqqında az-çox məlumatı olanlar bilirlər ki, müasir tibb xəstəliklərin səbəbini yox, nəticələrini müalicə edir. Halbuki insanlar öz orqanlarının funksiyaları haqqında məlumatlı olsalar və həmin orqanların nə zaman "nə istədiklərini" bilsələr, o istəklərə əməl etməklə heç zaman xəstəliklərə tutulmazlar.

Sadə qanunları pozmaqla həyatımızı mürəkkəbləşdiririk

Yuxarıda qeyd etdik ki, həyat çox sadə həqiqətlər üzərində qurulub. Çoxlarımız axşamüstü işdən evə qayıdarkən çox yorğun olduğumuzu düşünürük. Fikirləşirik ki, yemək yeyib televizora baxmaqla və ya başımızı nə iləsə qatmaqla yaxşı istirahət edirik. Ancaq yanılırıq. Bilirsiniz niyə? Müasir həyatda elə bir dövrə gəlib çatmışıq ki, işlərimizin çoxunu oturaq vəziyyətdə həll edirik və ya buna məcburuq. Lakin bunun "statistikasını" aparmağı düşünmürük. Elə isə fürsət düşmüşkən gəlin hesablayaq. Səhər saat 9-da işə başlayırıq. Saat 1-dək oturaq vəziyyətdə işləyirik. Bu dördsaatlıq iş prosesində kiçik fasilələrlə, ən uzağı, yarım saat ayaqüstə olarıq. Nahar zamanı isə, təbii ki, ayaqüstə yox, oturaraq yemək yeyirik. Ondan sonra yenidən iş otağına keçib oturur və saat 18-dək oturmuş vəziyyətdə işləmək məcburiyyətində qalırıq. Bu növbəti dördsaatlıq vaxtda yenə yarım saatı ayaqüstə qaldığımızı fərz edək. İşdən çıxıb yenə də şəxsi avtomobilimizə və ya ictimai nəqliyyata əyləşirik. Evə çatdıqdan sonra əl-üzümüzü yuyub yenə də süfrə arxasında otururuq. Şam yeməyi yedikdən sonra bu dəfə televizorun qarşısında otururuq. Hətta qonaq getsək də, evdə digər işlə məşğul olsaq da, bu "oturmaq dərdi" bizdən əl çəkmir. Əslində isə biz ondan əl çəkmirik. Günün 24 saatından 8 saatını yatmağa ayırsaq, qalan 16 saatın ən çox 3 saatını ayaqüstə, geridə qalan 13 saatını isə oturaq vəziyyətdə keçiririk. İndi gəlin, necə deyərlər, papağımızı qarşımıza qoyub yaxşı-yaxşı fikirləşək. Bir insan gündə 10-13 saat oturaq vəziyyətdə olursa, bu, həftədə ən az 70-80 saat, ayda isə 300 saat deməkdir. İndi siz deyin, bir insan ayda 300 saat və ya bir ayın 30 günündən 12-13 gününü (demək olar ki, yarısını) oturaq vəziyyətdə keçirirsə, hansı xəstəlikdən danışmayasan?

Oturaq həyat tərzinin fəsadları

Yuxarıda adını çəkdiyim və bir çox elmi kəşflərin müəllifi olan Mirzəkərim Norbekov insanın, demək olar ki, əksər xəstəliklərini onun yaşam tərzinin onurğa sütununa təsiri ilə əlaqələndirir. Qeyd edək ki, insanın onurğa sütunu 7 boyun, 12 döş, 5 bel və 5 birləşmiş oma fəqərələrindən ibarətdir. Bunların arasında fibroz toxumadan və qığırdaq nüvəsindən ibarət fəqərələrarası disklər yerləşir. Onurğa müvazinət funksiyasını, disklər isə amartizator funksiyasını daşımaqla fəqərələrə elastiklik və hərəkətlilik verir. Əgər insan oturaq həyat tərzi keçirirsə, idmanla məşğul olmursa, bir sözlə, onurğa sütunu uzun müddət hərəkətsiz qalırsa, o zaman qan dövranında durğunluq yaranır. Orqanizmdən xaric olunmalı duzlar beyin toxumalarında, qan damarlarında, əsasən də, oynaqlarda – fəqərələr arasında toplanır. Tullantıların disklərdə toplanması fəqərələrin elastikliyinin itməsinə, qurumasına səbəb olur. Disklər quruduqca fəqərələr sıxılır. Sıxıldıqca fəqərələrin arasından çıxan sinir ucları da sıxılır. Eyni zamanda qan və limfa damarları da sıxılmağa başlayır. Nəticədə, bu sinir liflərinin, qan və limfa damarlarının əlaqədar olduğu bədənin hər hansı fəqərələrinə uyğun müvafiq orqanlarında çoxsaylı xəstəliklərin yaranması müşahidə olunur. Radikulitlər, fəqərə yırtıqları, artrozlar, daxili orqanların xəstəlikləri məhz bu səbəbdən əmələ gəlir.

Professor M.Norbekov bütün bu problemlərdən xilas olmağın yolunu düzgün həyat tərzi keçirməkdə, sağlamlıq üçün çox əhəmiyyətli olan onurğa sütununun hərəkətliliyini təmin edən xüsusi təlim və məşqlərdə görür.

İllərdir ki, tibbi ekspertlər insanlarda fiziki qeyri-fəallığın riskləri ilə bağlı xəbərdarlıq edirlər. Ümumdünya Səhiyyə Təşkilatının hesabatında deyilir ki, istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrdə insanlar son zamanlar daha çox oturaq həyat tərzi keçirirlər. Təşkilat həmçinin dünyada ildə iki milyona qədər insanın oturaq həyat tərzi də daxil edilməklə fiziki aktivliyin olmaması səbəbindən öldüyünü bildirir. Amerika Birləşmiş Ştatları və Avstraliya tədqiqatçıları gün ərzində həddən ziyadə oturaq zaman keçirən insanlarda xərçəng, şəkər, ürək-damar xəstəliklərinin və yüksək qan təzyiqi risklərinin müşahidə olunduğunu aşkar ediblər. Amerikalı alimlər xəbərdarlıq edirlər ki, gün ərzində 6 saatdan artıq oturaq vəziyyətdə işləməyə məcbur olan cavan insanların bir hissəsi 15 ildən sonra müxtəlif xəstəliklərlə üzləşir. Saatlarla oturaq həyat tərzi keçirməyin mənfi nəticələrindən hətta ən yaxşı fiziki formada olan insanlar da qaça bilmirlər. Növbəti belə təcrübə Kanadada uşaqlar üzərində aparılıb. Maraqlı televerilişlərə baxan müddətdə uşaqların qan təzyiqi və nəfəsalma templəri öyrənilib. Tədqiqatçıları, hər şeydən öncə, uşaqların saatlarla məktəb partası arxasında əyləşəndən sonra kompüter masasının arxasına keçmələri, yaxud televiziya verilişlərinə baxmaları məsələsi daha çox narahat edir. Məlum olub ki, iki saatdan yeddi saata qədər oturan uşaqların qanında şəkərin miqdarı azalır, faydalı xolesterinin səviyyəsi aşağı düşür. Nəticədə, osteoporoz xəstəliyini yaradan faktorlar ortaya çıxır. Eyni zamanda çox oturmaq kökəlməyə də səbəb olur. Alimlər müəyyənləşdiriblər ki, hər gün 2 saat oturmaq kökəlmə riskini 5 faiz artırır.

Son söz

Oturaq həyat tərzinin fəsadlarından bəhs etdik. Doğrudur, bu gün müasir inkişafın qarşısına keçib bütün işlərimizi ayaqüstə həll edə bilmək imkanımız yoxdur. Ancaq hər gün müəyyən fasilələrlə müxtəlif fiziki hərəkətlər etmək, gün ərzində yaxın məsafələri piyada qət etmək öz əlimizdədir. Onu da nəzərə alaq ki, yay fəslindən fərqli olaraq, qışda oturaq həyat tərzi keçirməyə daha çox məcburuq. Bununsa yeganə yolu gündəlik rejimdə aktiv fiziki hərəkətlərə daha çox yer verməkdir. Bu gün ümumtəhsil məktəblərindən tutmuş ali təhsil ocaqlarınadək, həmçinin müxtəlif idarə, təşkilat və qurumlarda minlərlə insan oturaq həyat tərzi keçirməyə məcburdur. Əgər gündəlik həyatımızda gündəlik fiziki hərəkətləri vərdiş halına gətirməsək, gələcəkdə bu fəsadlardan qurtulmağımız da çətin olacaq. Yaddan çıxarmayaq ki, sağlam gələcəyə oturmaqla yox, addımlamaqla çata bilərik.

Səbuhi HƏSƏNOV

Yeni nəşrlər

"Nəhəcirin Orta Tunc dövrü abidələri" adlı kitab çapdan çıxıb

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Zakir Rzayevin "Nəhəcirin Orta Tunc dövrü abidələri" adlı yeni kitabı çapdan çıxıb. AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin qərarı ilə işıq üzü görən kitabın elmi redaktoru AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, rəyçiləri AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadə və tarix elmləri doktoru, professor Fəxrəddin Səfərlidir.

Monoqrafiyada Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan Nəhəcir Orta Tunc dövrü abidələri haqqında ətraflı məlumat verilir, əldə olunmuş arxeoloji məlumatlar təhlil edilir.

Dörd fəsildən ibarət kitabın birinci fəsli "Nəhəcir Orta Tunc dövrü abidələrinin coğrafi mövqeyi və öyrənilmə tarixi" adlanır. İlk fəsildə ərazinin geoloji quruluşu, coğrafi mövqeyi, təbii şəraiti, abidənin öyrənilmə tarixi, Nəhəcir ərazisindən keçən köç yolları haqqında maraqlı məlumatlar verilir.

"Arxeoloji abidələr" adlanan ikinci fəsildə yaşayış yerləri, Nəhəcir qalası və ərazidəki qəbir abidələrindən bəhs olunur, onların xarakterik xüsusiyyətləri təhlil edilir.

Keramika məmulatlarının tipoloji təsnifatı, hazırlanması, morfoloji təsnifatı və bişirilmə texnologiyası, Nəhəcir keramikasının rənglənmə texnologiyası, qabların mineraloji tərkibi və süxurlar, məmulatların üzərindəki ornamental təsvirlər haqqında monoqrafiyanın üçüncü fəslində danışılır.

Əsərin dördüncü fəslində isə Nəhəcir tayfalarında sosial yaşam, ətraf mühit təsvir edilmiş, arxeoloji abidələrin dövrləşdirilməsi aparılmışdır.

Kitabda təqdim edilən şəkil, xəritə və illüstrasiyalar oxucuda ərazi və arxeoloji tapıntılar haqqında əyani təsəvvür yaratmağa xidmət edir. Məlumat üçün deyək ki, Azərbaycan, türk, rus, ingilis dillərində 205 ədəbiyyat və mənbə əsasında yazılmış monoqrafiya Naxçıvanın Orta Tunc dövrü tarixini öyrənmək istəyən tədqiqatçılar və oxucular üçün xüsusi əhəmiyyət kəsb edir.

Elnur KƏLBİZADƏ

Maarifləndirici tədbir keçirilib

Naxçıvan Dövlət Film Fondunda Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə "Mülki müdafiə, fövqəladə hallardan qorunma və yanğın təhlükəsizliyi" mövzusunda maarifləndirici tədbir keçirilib. Muzey əməkdaşlarının iştirak etdiyi yığıncağı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin aparıcı məsləhətçisi İsfəndiyar İsmayılov maarifləndirici tədbirin əhəmiyyətindən danışıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi Mülki müdafiə işinin təşkili şöbəsinin əməkdaşı Şərif Əsədovun "Mülki müdafiənin xəbərdarlıq siqnalları üzrə fəaliyyətin təşkili. Dəm qazı, ondan müdafiə üsulları", həmin şöbənin rəis köməkçisi Rəcəb Səfərovun "Muzeylərdə mülki müdafiə işinin təşkili və yanğın təhlükəsizliyi qaydaları", mülki müdafiə kursunun müəllimlərindən Çingiz Kazımovun və Afaq Hüseynlinin "Fövqəladə hallar zamanı davranış qaydaları" və "Fövqəladə hallar zamanı özünəyardımı və qarşılıqlı yardım göstərməyi hamı bacarmalıdır" mövzularında məruzələri dinlənilib. Məruzələrdə qeyd olunub ki, qış mövsümündə yanğın, məişət cihazlarının partlayışı və dəm qazından zəhərlənmə hallarına daha çox rast gəlinir. Bu halların baş verməməsi üçün təhlükəsizlik qaydalarına ciddi əməl olunmalıdır. Baş verə biləcək təbii və texnogen xarakterli hadisələrin qarşısının operativ surətdə alınması üçün belə hadisələr zamanı düzgün davranış qaydaları barədə bilikləri artırmaq vacibdir. Hadisə zamanı insanların özünüxilas və ətrafdakılara yardım edilməsi qaydalarının öyrənilməsi həmin hadisənin fəsadlarından bacardıqca xilasolunma baxımından olduqca əhəmiyyətlidir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmış, videomateriallar nümayiş etdirilmişdir.

* * *

Analoji tədbir Naxçıvan şəhərindəki Ərtoğrol Cavid adına Uşaq İncəsənət və Bədii Sənətkarlıq Məktəbində də keçirilmişdir. Tədbirdə Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarından Mirtaleh Seyidovun, Azər Qasımovun, Əbülfəz Qafarovun və Hasil Məmmədovun çıxışları olmuşdur.

Sonda tədbir iştirakçılarına yanğınsöndürmə və xilasetmə vasitələri nümayiş etdirilmiş, yaddaş kitabçaları paylanmışdır.

Əli RZAYEV

İtmişdir

Məmmədov Razim İntiqam oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Məmmədli Nəriman Fərman oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Abdullayev Ramal Mənsim oğlunun adına verilmiş gizirin hərbi vəsiqəsi və məzuniyyət vərəqəsi itdiyindən etibarsız sayılır.

Allah rəhmət eləsin

Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının baş həkimi Xuraman Hacızadə və poliklinikanın kollektivi iş yoldaşları Gülbahar Musayevaya və Mənzər Hüseynovaya, əzizləri

NİYAR XANIMIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Şəhər Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Oruc Əliyev və mərkəzin kollektivi Abasət Hüseynəliyevə, atası

HƏSƏNİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əliyev Hüseyn Məşdi oğlu ailəsi ilə birlikdə Abasət Hüseynəliyevə, atası

HƏSƏNİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor müavini: SƏYYAR MƏMMƏDOV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 29